**DOI:** https://doi.org/10.59849/2957-3882.2023.1.66
**UOT: 821.512.161**

# NECATİ CUMALININ HEKAYƏLƏRİNDƏ QADIN PROBLEMİ

**Emiliya XƏLİLOVA***

***Açar sözlər:*** *Necati Cumalı, hekayə, qadın problemi*

## XÜLASƏ

N.Cumalı "Ay Büyürken Uyuyamam" adlı kitabındakı hekayələrdə sırf ailə-məişət məsələlərinə toxunmuş, feodal qayda-qanunlarının hökm sürdüyü kəndlərdə ailə-məişət məsələlərini, qadın hüquqsuzluğunu, kişi-qadın münasibətlərini realist qələmi ilə işıqlandırmışdır.

Yazıçı qadınların simasında bir çox ictimai-iqtisadi problemləri oxuculara çatdırdırmağa çalışmışdır.

Necati Cumalı 1921-ci ildə Yunanıstan Makedoniyasının Florina şəhərində anadan olmuş və Qurtuluş savaşından sonra Lozan müqaviləsinə əsasən 1924-cü ildə ailəsi ilə birlikdə İzmirin Urla qəsəbəsinə köçürülmüşdür. Bu köçürülmə hadisəsi onun yaddaşında dərin izlər buraxmış, bu hadisə ilə əlaqədar olan, onun yaddaşında qalan xatirələrini sonralar yazdığı "Makedoniya - 1900" adlı hekayələr kitabında təsvir etmişdir.

Qırxıncı illərin əvvəllərində ədəbi yaradıcılığa bir şair kimi başlayan N.Cumalı (1921-2001) bir neçə şeir kitabının müəllifi olmaqla yanaşı, roman, povest, hekayə, dram əsərləri və publisistik məqalələri ilə bugünkü türk ədəbiyyatında layiqli yerlərdən birini tutur.

N.Cumalı 1955-ci ildən başlayaraq bir-birinin ardınca 10-a yaxın hekayə kitabları nəşr etdirmişdir.

Müəllif ilk hekayə kitablarında ("Yalnız kadın", "Değişik gözler") öz gənclik illərini, sevgilərini, Urlada vəkil işlərkən keçirdiyi darıxdırıcı günlərini, eşq macəralarını qələmə almışdır.

Müəllifin sonralar qələmə aldığı "Susuz yaz" (1962) kitabındakı hekayələrdə ictimai problemlər ön plana çəkilmiş, o dövrdəki Qərbi Anadolu kəndinin ümumi vəziyyəti, kəndlilərin ictimai-iqtisadi dərdləri, torpaq və susuzluq məsələləri, gerilik və cəhalət, qız qaçırma, qadın hüquqsuzluğu, qadına feodal münasibət və s. kimi aktual məsələlər onun hekayələrinin başlıca mövzuları olmuşdur.

Onun hekayələrinin mövzusu Urlada vəkil işlərkən tanış olduğu məhkəmə sənədlərindən götürülmüşdür.

N.Cumalı "Susuz yaz" povestində Qərbi Anadoluda olan bir çox ictimai problemləri üzə çıxarmaqla yanaşı, qadın probleminə də toxunmuşdur.

Müəllif Baharın simasında Anadolu qadınının çarəsizliyini, acınacaqlı həyatını, çıxılmaz vəziyyətə düşməsini təbii, canlı və inandırıcı olaraq təsvir etmişdir.

Baharın əri Osman həbsxanaya düşdükdən sonra, qaynı Həsən onun rahatlığını pozur. Bu evə gəldiyi ilk gündən qaynının ona aşiq olduğunu hiss edən Bahar Həsənin başqası ilə evlənməsini təklif etsə də, povestin sonunda qaynının arzularının qurbanı olur və Həsənə nifrət etsə də onunla evlənir. Çünki çarəsiz qalan Baharın gedəcək yeri, işi, savadı yoxdur ki, bu evdən uzaqlaşıb getsin və canını qurtarsın.

Beləliklə, Baharın əri Osmanın, qardaşı Həsənin əvəzinə həbsxanaya düşməsi, Osmanın yanlış olaraq ölüm xəbərinin gəlməsi, qaynı tərəfindən aldadılması və çarəsiz qalan Baharın onunla ailə

* AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, elmi işçi.

qurması, nəhayət bir neçə ildən sonra Osmanın həbsdən azad olub kəndə dönməsi, Baharın qaynı tərəfindən aldadıldığını başa düşdükdən sonra özünün və əri Osmanın intiqamını alaraq qaynı Həsəni qətlə yetirməsi hadisəsi obyektiv olaraq canlandırılmışdır.

"Gülsüm kıza ağıt" hekayəsində isə artıq qadının öz hüquqlarının tapdalanması və feodal qanunlarına qarşı etiraz səsini qaldırması məsələsinə toxunulmuşdur. Gülsüm tüfeyli həyat sürən öz həyat yoldaşı Bəktaşa qarşı çıxaraq ondan boşanmaq qərarına gəlir. Gülsümün öz ərinə qarşı çıxaraq boşanmaq istəməsi Urla və kəndlərdə alışılmamış, adət halını almamış hadisədir.

Gülsümün ərindən boşanmaq istəməsi, ərinə qarşı etiraz səsini ucaltması "Urlada qadının daima zülmlərə dözməsi" məsələsinə ziddir. Ona görə də Gülsüm əri tərəfindən bıçaqla qətlə yetirilir.

Bu hekayədə Urla qəsəbəsində və kəndlərdə yaşayan kişilərin tüfeyli həyat keçirmələri, qadın əməyinin istismar olunması, ictimai, iqtisadi sahələrdə ağır yükün əsas qadınların çiyinlərində olması tənqid edilir. O yerlərin mədəniyyəti, adət-ənənəsi haqqında real cizgilərlə məlumat verilir.

N.Cumalı "Ay Büyürken Uyuyamam" (1969, 1971) adlı hekayə kitabında sırf feodal qayda-qanunlarının hökm sürdüyü kəndlərdə ailə-məişət məsələləri, qadın hüquqsuzluğu, qadın-kişi münasibətləri məsələlərindən bəhs etmişdir. Onun cəmiyyət içindən üzə çıxardığı məsələlər çılpaq, açıq səhnələr deyil, əsl ictimai problemlərdir. Türk ədəbiyyatşünas alimi Adnan Binyazar N.Cumalının bu hekayələrindən bəhs edərkən göstərir ki: "Cumalı qadın problemini real həyatdan götürüb üzə çıxarır. Bəzən bu qadın içimizdən biri olacaq qədər yaxındır bizə. Buna görə də həmin hekayələri oxuyarkən bu problemlərə biganə qala bilmirsən. Obrazların xüsusiyyətlərini açıb göstərməkdə hadisələrin canlılığını mübaliğəsiz təsvir etməkdə Cumalı ən sağlam yola müraciət etmişdir. (5, 17)

"Ay Büyürken uyuyamam", "Vasfiye", "Anası kızından Maya" adlı hekayələrdə həyat yoldaşlarını itirən, tək-tənha, çarəsiz qalan qadınların psixoloji vəziyyətləri, qadın düşkünü olan kişilərin qadına olan mənfi münasibətləri tənqid atəşinə tutulur.

N.Cumalının hekayələrində toxunduğu ən aktual problemlərdən biri də işsizlik problemidir. İş axtarmağa gedən kişilərin kənddə qalan həyat yoldaşlarının maddi və mənəvi cəhətdən ağır vəziyyətləri, bu qadına kənddə qalan kişilərin alçaq gözlə, qadına bir əşya kimi baxmaları "Horoz", "Yük", "Halim gələcək" kimi hekayələrdə öz əksini tapmışdır.

"Hozor" hekayəsində beş evli kənd təsvir olunur. Bu kəndin bütün kişiləri ailələrini tənha qoyaraq iş axtarmağa gedirlər. Ərsiz qalan qadınları başqa yad kişilərin pis rəftarından qorumaq üçün 70 yaşlı bir qocanı kənddə gözətçi qoyurlar. Yazıçı kinayə ilə bu qocanı Horoz adlandırır.

Burada bu beş evli kənd də, Horoz da simvolik olaraq verilmişdir. (4, 47)

"Yük" hekayəsində də əri iş axtarmağa gedən Şahnazın ağır həyatı, dolanmaq üçün arxasında meşədən odun daşıması təsvir olunur. Onun ərinin kənddə olmamasından istifadə edən Musa Şahnazı ələ almağa çalışır, daima onu təqib edir və nəhayət istəyinə nail olur.

Yazıçı Şahnazın bu hərəkətini əxlaqsızlıq kimi deyil, bunları törədən ictimai səbəbləri obyektiv olaraq üzə çıxarmağa çalışır.

N.Cumalının toxunduğu problemlərdən biri də, taleyin ixtiyarına buraxılmış qadınların sevib-sevilmək hüququndan məhrum olmaları, cəhalət və geriliyin qurbanına çevrilmələri, qadınları sevdiklərindən ayırıb zorla yaşlı adama ərə verilməsi və sevmədən bir ömür boyu onunla birlikdə yaşamaq məcburiyyətində qalması kimi ictimai bəlalar "Soluk almak", "İğneci, "Çizme delil sayılmaz", "Göz açmak", "Helvacı Güzeli" adlı hekayələrdə açıq şəkildə əks olunur.

"Çizme delil sayılmaz" hekayəsində Hənifə, "Aylı Bıçak" hekayəsində də Ferdevs obrazları bir-birinə çox yaxındırlar. Hər ikisinin də sevdiklərindən ayırıb zorla yaşlı kişiyə ərə verilməsi, neçə ildən sonra onların öz sevdiklərinə qovuşmaları təsvir olunur. Bu hekayələr sevmədən yaşayan qadınların hekayəsidir.

Hənifə də, Fidevs də artıq öz hüquqsuzluqlarını başa düşərək sevib sevilmək həsrətindədirlər, onlar öz istəklərinə çatmaq üçün ərlərinə xəyanət də edirlər. Bu xəyanətə səbəb olan problemlər real cizgilərlə üzə çıxarılır və canlı bir dillə oxucuya çatdırılır. Əlbəttə, bu xəyanət çıxış yolu deyil, ancaq dövr və mühiti unutmaq olmaz. Bu o dövrün kənd və qəsəbələrində çıxış yolu tapa bilməyən savadsız

kəndli türk qadınının dramıdır. Bir şeyi də nəzərə almaq lazımdır ki, artıq qadınlar öz hüquqsuzluqlarına bu yolla etiraz edirlər, onların gedəcək yerlərinin olmaması, işsizlik, maddi cəhətdən imkansızlıq, savadsızlıq bu qadınların əl-qolunu bağlamış, başqa cür hərəkət etmələrinə mane olmuş, ətraf mühit, cəmiyyət onların xoşbəxtliyini əllərindən almışdır.

Anadolu mühiti üçün səciyyəvi olan ictimai bəlalardan biri də qadının üstünə günü gətirilməsi məsələsidir. “Acı” hekayəsində bu problem Fəxriyyənin şəxsində verilsə də, bu bütün Anadolu qadınlarının problemi, dərdi, əzabıdır. Əlindən bir iş gəlməyən, çarəsiz qalaraq dözməyə məhkum edilmiş Anadolu qadınının acınacaqlı vəziyyətidir.

Bu qadınların taleyi bir-birinə çox bənzəyir. Onlar da xoşbəxt olmaq, sağlam ailə qurmaq həsrətindədirlər, lakin feodal qanunların, geriliyin, cəhalətin qurbanına çevrilən bu qadınlar artıq öz hüquqlarının tapdalandığını başa düşüb öz etirazlarını özlərinə məxsus şəkildə bildirirlər.

Beləliklə yazıçı qadınların simasında bir çox ictimai-iqtisadi problemləri oxuculara çatdırmağa çalışmışdır.

## ƏDƏBİYYAT

1. Necati Cumalı. “Susuz yaz” İst. 1962.
2. Hikmet Dizdaroğlu. Susuz yaz. “Türk dili”. № 130, 1962.
3. “Ay Büyürken Uyuyamam”. İst. 1969.
4. Papirus, 1970, sayı, 44.

## РЕЗЮМЕ

***Эмилия ХАЛИЛОВА***

***Женская проблема в рассказах Неджати Джумали***

***Ключевые слова:*** *Неджати Джумали, рассказ, женская проблема*

Неджати Джумали в рассказах своей книги «Ай бююркен уюямам» касалась только семейно-бытовых вопросов, а своим реалистическим письмом освещала семейно-бытовые вопросы, женское бесправие, отношения между мужчиной и женщиной в деревнях, где господствовали феодальные порядки.

Многие социально-экономические проблемы писатель пытался донести до читателей посредством женских образов.

## SUMMARY

***Emilia KHALILOVA***

***Women's Problem in Necati Cumali's Stories***

***Keywords:*** *Necati, Cumali, women's problem, story*

In the stories included his book "Ay büyürken uyuyamam", N. Jumali mainly discussed family-household issues, and illuminated family-household issues, women's lawlessness, and male-female relations in the villages where feudal rules prevailed with his realistic pen.

The writer tried to convey many socio-economic problems to the readers in the face of women.